Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ

XOCAVƏND

01 (86) Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti Fevral 2020-i

"2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr" barədə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Hesabatı

XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan Ümummilli Lider Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür. Ulu Öndərin müstəqillik konsepsiyasının, sosial-iqtisadi inkişaf strategiyasının uzaqgörənliyi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı böyük uğurlarda bir daha tarixi təsdiqini tapmaqdadır. Son illərdə Azərbaycan Respublikasının iqtisadi, sosial və humanitar inkişafı çox sürətli və innovativ olmaqla yanaşı, dünyanın XXI əsr üçün əsas prioriteti sayılan davamlı və eyni zamanda hər bir vətəndaşın rifahına müsbət təsir göstərən inklüziv inkişaf tələblərinə yüksək dərəcədə cavab verir. Əldə olunan nailiyyətlər ölkədə sistemli şəkildə həyata keçirilən islahatlar nəticəsində iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi sayəsində mümkün olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin davamlı və tarazlı inkişafının təmin olunmasını, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsini və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaq məqsədini daşıyır. İqtisadi, sosial və humanitar sahədə əhəmiyyətli uğurların əldə edilməsi yüksək səviyyədə həyata keçirilən və müasir elmə əsaslanan dövlət idarəçiliyinin nəticəsində Azərbaycanda hərtərəfli sosial-iqtisadi inkişaf davam etmiş, ölkənin dinamik inkişafı, əhalinin rifah halının daha da yaxşılaşdırılması, habelə, Respublikanın beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə yüksəlməsi və milli dövlətçilik maraqları təmin edilmişdir.

2020-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında "2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə"dəproqram xarakterli nitqində qeyd etdiyi kimi, ötən il qarşıya qoyulan bütün vəzifələr uğurla icra edilmiş, ölkəmizin dayanıqlı inkişafı təmin olunmuş, iqtisadi sahədə aparılan islahatlar nəticəsində ölkəmizin uğurlu inkişafı istiqamətində önəmli addımlar atılmışdır.

Hesabat ilində möhtərəm cənab Prezidentin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, qeyri-neft ixracının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində çoxşaxəli islahatların həyata keçirilməsi nəticəsində ümumi daxili məhsulun real artımı 2,2 faiz, qeyri-neft sektoru 3,5 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı isə 14 faiz artmışdır.

Ötən il aqrar sahədə həyata keçirilən islahatlar və görülmüş tədbirlər nəticəsində kənd təsərrüfatı məhsullarının əsaslı artımı ilə səciyyələnir.Regionların sosial-iqtisadi inkişafına dair "Dövlət Proqramları"nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad edilməsi, istifadə etdikləri yanacağın, mühərrik yağlarının dəyərinin əhəmiyyətli hissəsinin dövlət tərəfindən ödənilməsi, dövlət büdcəsinin vəsaiti hesabına buğda istehsalının stimullaşdırılması məqsədilə yardım verilməsi nəticəsində kənd təsərrüfatı 7 faiz artmış, xüsusilə bitkiçilikdə 10 faizdən çox artıma nail ounmuşdur.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır. Bu səbəbdən çox nüfuzlu beynəlxalq təşkilat olan Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan bu dövr ərzində biznes mühitinə görə yenə də 20 ən islahatçı ölkə sırasında yer almışdır.

Hesabat ilində Azərbaycanın valyuta ehtiyatlarının şaxələndirilməsi istiqamətində həyata keçirilmiş tədbirlər sayəsində valyuta ehtiyatları 6,4 milyard dollar artaraq 51 milyard dollar təşkil etmiş və. adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir. Ölkə iqtisadiyyatının bütövlükdə pozitiv nəticə ilə yekunlaşması, xarici ticarət dövriyyəsinin müsbət saldosunun 6 milyard dollar səviyyəsində olması iqtisadiyyatda baş vermiş ciddi dönüşü əsaslı şəkildə xarakterizə edə bilən mühüm göstəricilərdir.Eyni zamanda Azərbaycanın milli valyutası digər xarici valyutalara nisbətən sabit qalmış, inflyasiya 2,6 faiz olmaqla əhalinin pul gəlirləri 7,4 faiz artmışdır.

2019-cu ildə Azərbaycanın iqtisadi və siyasi imkanlarının artması ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq tədbirlərin sayından, eyni zamanda, dövlət başçısı cənab İlham Əliyevin qatıldığı beynəlxalq tədbirlərin miqyasından da aydın görünür. Azərbaycan ötən ildə 120 ölkəni özündə birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünə ev sahibliyi etdi. Azərbaycan ötən il eyni zamanda, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etdi və bu sessiya çərçivəsində Şəki Xan Sarayı, Şəkinin mərkəzi hissəsi UNESKO-nun Dünya İrs Siyahısına daxil edildi. Ötən il Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanması ölkəmizin yeniliklərə imza atan, ən əsası yeni texnologiyaların inkişafına və tətbiqinə xüsusi önəm verən ölkə kimi tanınmasının aydın mənzərəsini yaratdı. Həmçinin keçən il Azərbaycana Avropa İttifaqı Şurasının prezidentinin səfəri Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri də əks etdirir. O cümlədən, 70 ölkənin dini liderlərinin II Zirvə Görüşü ölkəmizdə keçirilməsi zamanı bizim reallıqlarımızla tanış olmuş və ölkəmizdə dinlərarası, mədəniyyətlərarası istiqamətdə görülmüş işlərə yüksək qiymət vermişlər.

Azərbaycan Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin keçdiyi məkan kimi tarixi İpək yolunun bərpası prose-

"2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr" barədə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Hesabatı

sində öz üzərinə düşən vəzifəni uğurla reallaşdırır. Yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində keçən il önəmli illərdən biri olmuş, Samur çayı üzərində yeni körpünün inşası başa çatdırılmış, ümumilikdə 1300 kilometr avtomobil yolu çəkilmişdir.

Son illər dünyanın ən sabit və dinamik inkişaf etməkdə olan ölkələrindən birinə çevrilən Azərbaycan hazırda müstəqil siyasi-iqtisadi siyasət yeridir, bir sıra qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı rolunda çıxış edir. Bu baxımdan ötən il Trans-Anadolu qaz kəmərinin (TANAP) istismara verilməsi əlamətdar hadisə kimi tarixə yazılmış və Azərbaycanın yeritdiyi xarici siyasətin növbəti uğuru kimi qeyd edilmişdir. Bu layihə Azərbaycan qazının Avropaya böyük həcmdə nəqli mövzusunda aparılmış müzakirələrin yekunu kimi reallaşmış və dörd böyük layihədən ibarət olan "Cənub qaz dəhlizi"nin mərkəzi tərkib hissəsidir. Ona görə həm TANAP üzrə sazişin imzalanması, həm də bu qaz kəmərinin vaxtından əvvəl istismara verilməsi və nəzərdə tutulmuş vəsaitə çox böyük qənaət edilməsi doğrudan da böyük tarixi nailiyyətimizdir. Cənub Qaz Dəhlizinin qalan dördüncü layihəsi də uğurla icra edilir. Eyni zamanda TAP layihəsinin icra səviyyəsi 90 faizi keçmişdir və inanırıq ki, bu il TAP-ın istismara verilməsi də nəzərdə tutulmuş vaxtda qeyd ediləcəkdir.

Hazırda respublikamızda reallaşdırılan genişmiqyaslı iqtisadi islahatlar, çoxsaylı sənaye və aqrar-sənaye obyektlərinin yaradılması elektrik enerjisinə və ehtiyat generasiya güclərinə tələbatı daha da artırıb. Keçən il elektrik təsərrüfatının yenilənməsi istiqamətində görülən tədbirlər, elektrik enerjisi sahəsində infrastruktur layihələrin icra edilməsi nəticəsində istehsal gücü 400 meqavat olan "Şimal-2" elektrik stansiyası istismara verildi. Bununla bərabər olaraq Mingəçevir İstilik Elektrik Stansiyasında və digər mövcud stansiyalarda aparılmış təmir-bərpa işləri nəticəsində təxminən 400 meqavat itirilmiş generasiya gücü bərpa olunması, ümumilikdə keçən il 800 meqavat əlavə generasiya gücü əldə edilməsi, həm də böyük ixrac imkanımızın yaranmasına səbəb olmuşdur.

Həmçinin sosial infrastrukturla bağlı çox ciddi addımlar atılmış - 60 tibb müəssisəsi, 50 məktəb modul tipli olmaqla 84 məktəb tikilmiş və təmir edilmişdir.Eyni zamanda əhalinin içməli su ilə tam təminatı məsələsinin öz həllini tapması üçün 345 subartezian quyusunun qazılması nəticəsində yüzlərlə kəndin su ilə təminatını yaxşılaşmış və bu il 400-dən çox subartezian quyusu qazılması nəzərdə tutulmuşdur. Həmçinin keçən il daha mühüm bir məqsədə də nail olunmuş və Azərbaycanda qazlaşdırmanın səviyyəsi 95 faizə çatdırılmışdır.

Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Ötən illər ərzində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən və beləliklə, Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan dövlət başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyini əsas götürmüşdür. Ötən ilin əvvəlində Şamaxı, Ağsu, İsmayıllı rayonlarında baş vermiş böyük zəlzələ nəticəsində minlərlə ev dağıntıya məruz qalsa da, zəlzələdən dərhal sonra bölgədə olan cənab Prezidentin göstərişlərinə uyğun olaraq qış gələnə qədər bütün evlərin yenidən tikilməsi bir daha onu göstərir ki, vətəndaşların problemlərinin həlli daim dövlətin diqqət mərkəzindədir.

Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynovun vətəndaşlarla səyyar-qəbulu

Sosial-iqtisadi siyasətin əsas prioritetlərdən biri də məhz respublikanın ümumi inkişafı şəraitində sosial cəhətdən həssas qruplardan olan insanların etibarlı sosial müdafiə sistemi ilə əhatə olunmasıdır.Son illər aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində yoxsulluq və işsizlik səviyyəsi nəzərəçarpacaq dərəcədə azalmış, vətəndaşların maddi rifah halı yüksəlmiş, əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat sistemi təkmilləşdirilib, insan kapitalının və sosial infrastrukturun inkişafına nail olunub, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi gücləndirilmişdir. Azərbaycan dövlətçiliyi tarixinə sosialyönümlü il kimi düşən 2019-cu ildə dövlət başçısı tərəfindən iki sosial paket, eyni zamanda, xeyli fərman və sərəncam imzalanmışdır. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırılmış, banklara on min dollara qədər kredit borcu olanların problemi həll edilmişdir. Ölkə başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu qərarlar ümumilikdə dörd milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Qeyd etmək yerinə düşərdi ki, reallaşdırılan sosial paketlərin maliyyələşdirilməsi əsasən "kölgə iqtisadiyyatı"na qarşı aparılan mübarizənin bir qədər də gücləndirilməsi hesabına təmin olundu. Təbii ki, məhz iqtisadi sahədə aparılan islahatlar hesabına da kölgə iqtisadiyyatına qarşı mübarizədə əldə edilən uğurlara zəmin yaratdı. Kölgə iqtisadiyyatı ilə mübarizə sayəsində, bu mübarizənin məntiqi nəticəsi olaraq büdcəyə ötən il əlavə olaraq vergi və gömrük orqanlarında aparılmış islahatlar nəticəsində xəzinəyə plandan əlavə 1 milyard manat vəsait daxil edilmişdir.

Ölkədə ötən illər ərzində iqtisadiyyatın sürətlə inkişafı,beynəlxalq arenadakı mövqelərimiz, bir çox ölkələrlə dostluq münasibətlərimizin qurulması, ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıq - bütün bunlar turizmin inkişafına böyük təkan vermişdir. Azərbaycanda mövcud olan sabitlik, beynəlxalq mövqelərimizin möhkəmlənməsi, ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlərin turizmin inkişafına təsir göstərməsi nəticəsində 3 milyon 170 min xarici qonaq ölkəmizə gəlmişdir..

Nəzərə almaq lazımdır ki, dünyada hökm sürən qeyri-sabitlik, eyni zamanda xalqların və ölkələrin dinc qonşuluq şəraitində yaşamalarına edilən təhdidlər bütün sahələrə öz mənfi təsirini göstərir və dünya təcrübəsinə diqqət etdikdə görürük ki, dövlətlərin öz potensiallarını inkişaf etdirməkdə, vətəndaşlarının rifah halını yaxşılaşdırmaqda çətinlik çəkir, hətta inkişaf etmiş ölkələr belə bunun öhdəsindən gələ bilmirlər. Halbuki, Azərbaycan Ermənistanla müharibə şəraitində olsa da belə inkişaf tendensiyası davam etdirilir, rifah halının yaxşılaşdırılmasına, insan amilinə mühüm önəm verilir, insanların həyat şəraitinin daha da yaxşılaşdırılması üçün müvafiq dövlət proqramları uğurla icra edilir. Möhtərəm Prezident cənab İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu bir daha göstərir. İstər siyasi, istərsə də sosial-iqtisadi uğurlarla zəngin olan 2019-cu ildə də öz yurdlarından zorla qovulmuş soydaşlarımızın sosial problemlərinin həlli və mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim ölkə rəhbərinin diqqət mərkəzində olmuş, bu sahə ilə bağlı qəbul edilmiş "Dövlət Proqramları" və ona "Əlavələr"in icrası uğurla davam etdirilmişdir.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan region ölkələri ilə əlaqə-

"2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr" barədə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Hesabatı

lərini inkişaf etdirməklə, onları strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməklə bölgədə təhlükəsizliyin bərqərar olmasına, inkişafa mühüm töhfə vermiş və bu zəmində formalaşan yeni reallığın müəllifinə çevrilmişdir. Sevindirici haldır ki, ötən ili əvvəlki illə müqayisə etdikdə bütün sahələrdə təkmil islahatların həyata keçirilməsi nəticəsində möhtəşəm uğurlara imza atıldığı, ən əsası Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsi fonunda yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə gedən yolun bir addım da yaxınlaşdığı diqqətdən kənarda qalmır. Bu mənada diqqəti çəkən xüsusi məqam odur ki, cənab Prezidentin həyata keçirdiyi uğurlu siyasət, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı reallaşdırılan hücum diplomatiyası bölgədə yeni reallığın yaranmasına səbəb olmuşdur. Digər tərəfdən Azərbaycan işğalçı Ermənistana qarşı təcrid siyasətini uğurla davam etdirmiş, bu ölkənin siyasi və iqtisadi sisteminin çökməsində mühüm rol oynamışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyev danışıqlar masası arxasında hər zaman işğal edilmiş bütün Azərbaycan torpaqlarının qaytarılması və məcburi köçkünlərin öz doğma ev-eşiklərinə qayıdışının vacibliyini bildirmişdir.

Hesabat ilində Ali Baş Komandan İlham Əliyevin müasir ordu quruculuğu siyasətini uğurla həyata keçirməsi sayəsində ölkənin hərbi potensialı daha da möhkəmlənmiş, bir çox silahlar, sursatlar, hərbi texnika alınmış və Azərbaycanda istehsal olunmuşdur.Keçən il ərzində əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərinin həlli bizim hərbi gücümüzü daha da artırmışdır. Dövlət başçısının uzaqgörən siyasəti, prinsipiallığı, müdrik qərarları və beynəlxalq aləmdə böyük nüfuzu sayəsində siyasi dayaqlarını və iqtisadi müstəqilliyini daha da möhkəmləndirən Azərbaycan ordu quruculuğu sahəsində görülmüş irimiqyaslı tədbirlər, müasir hərbi-texniki bazanın yaradılması nəticəsində dünyanın 50 ən güclü ordusu sırasındadır.

Bu müddətdə əldə ediliş uğurlu nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi həyata keçirilən siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirməklə,sosial-iqtisadi nailiyyətlərin dayanıqlılığı inkişaf üçün etibarlı zəmin yaratmışdır. Azərbaycan Respublikasının birinci Vitse-Prezidenti və Heydər Əliyev Fondunun prezidenti vəzifələrini ən yüksək səviyyədə ləyaqətlə yerinə yetirərək bütün sahələrin inkişafına və milli mədəniyyətimizin beynəlxalq arenada tanıdılmasına böyük töhfələr vermiş Mehriban xanım Əliyeva dövlət idarəçiliyində çevikliyin, keyfiyyətli idarəetmənin, vətəndaşlara qayğı və mərhəmətin ən bariz örnəyini yarada bilmişdir.

2019-cu il ərzində Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair "Dövlət Proqramları"nın uğurla davam etdirilməsi nəticəsində bölgələrin hərtərəfli inkişafı təmin edilmiş, həyata keçirilən genişmiqyaslı tədbirlər ölkənin sosial-iqtisadi inkişaf strategiyasının mühüm istiqaməti kimi öz aktuallığını və önəmliliyini qoruyub saxlamışdır. Qəbul edilmiş "Dövlət Proqramı"na uyğun olaraq ayrı-ayrı məktəb binalarında müvəqqəti məskunlaşmış məcburi köçkün ailələləri üçün Beyləqan rayonunun inzibati ərazisində 146 ailəlik qəsəbənin tikintisi başa çatdırılmış və məcburi köçkünlərin istifadəsinə verilmişdir.

"2018-ci ildə Xocavənd rayonunda görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr barədə" 09 fevral 2019-cu il tarixdə keçirilmiş hesabat yığıncağında qeyd olunan nöqsan və təkliflərlə bağlı Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə təsdiq olunmuş "Tədbirlər Planı"na uyğun olaraq Yeni Qaradağlı qəsəbəsində 12 ədəd artezian quyusunun elektrik xətti (9 km məsafə) dəyişdirilmiş, N saylı hərbi hissəyə 13 km uzunluğunda elektrik xəttinin çəkilməsinə elektrik naqili ilə köməklik göstərilmiş, Yeni Tuğ qəsəbəsində kəndarası yollar çınqılla örtülmüş, Yeni Xocavənd qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış Abidə Kompleksində 12 ədəd, Xocavənd qəsəbəsi ilə 320 ailəlik qəsəbəni birləşdirən yolun işıqlandırılması üçün isə 20 ədəd işıq direkləri quraşdırılmış, 320 ailəlik qəsəbədə 2 qrup üzrə uşaq bağçası fəaliyyətə başlamış, Rayon İcra Hakimiyyəti Başçısı Aparatının inzibati binasının qarşısında və Xocavənd qəsəbəsinin girişində abadlıq- quruculuq işləri aparılmış, rayon ərazisində 320 ailəlik qəsəbəyə gedən yolun kənarında 700 ədəd həmişəyaşıl küknar ağacı əkilmişdir. Xalçaçılıq sənətinin inkişafı etdirilməsi və məcburi köçkünlərin işlə təmin edilməsi üçün Azərbaycan Respublikası "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti tərəfindən rayon ərazisində xalça istehsalı emalatxanasının tikintisi nəzərdə tutulmuş, bu məqsədlə məcburi köçkünlər üçün salınmış 320 ailəlik qəsəbənin ərazisindən 0.4 (63X63) hektar torpaq sahəsi ayrılmışdır.

Daha bir əlamətdar hadisə ondan ibarətdir ki, ötən ildə rayonda yeni Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xocavənd Rayon İdarəsi fəaliyyətə başlamışdır.

Rayonumuzda şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, kimsəsizlərin, yataq xəstələrinin və digər kateqoriyalardan olan aztəminatlı ailələrin sosial vəziyyətini qismən yaxşılaşdırmaq məqsədiləXocavənd Rayon İcra Hakimiyyəti başçısı tərəfindən 2019-cu il ərzində 117 ailəyə orta hesabla 154 manat maddi yardım göstərilmişdir. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" ilə Xocavənd rayonundan olan ümumilikdə 1401 məcburi köçkün ailəsi evlə təmin edilmişdir. Ötən ildə 75 ailə olmaqla 279 nəfər rayon sakinləri, o cümlədən 24 şəhid ailəsi evlə təmin olunmuşdur.

2020-ci il yanvar ayının 1-nə olan vəziyyətinə görə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1407 nəfər olmuş, onlardan 1335 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 72 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 39,9% təhsil, 5,3% sənaye, 19,8% əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi,15,1% dövlət idarəetməsi və müdafiə; sosial təminat, 2,3% nəqliyyat və anbar təsərrüfatı, 1,4% peşə, elmi və texniki fəaliyyət, 10,8% istirahət, əyləncə və incəsənət sahəsində, 2,8% kənd təsərrüfatı, 2,6% isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. Keçən ildə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 382,0 manat olmuşdur.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq 2019-cu il ərzində Məşğulluq Mərkəzinin əməkdaşları müraciət etmiş vətəndaşların həyat şəraiti ilə yerində tanış olmuş, aztəminatlı ailələrin özünüməğulluğunun təmin olunması üşün kateqoriyalara uyğun 58 nəfər, onlardan 29 nəfəri qadın olmaqla, bir aylıq təlim kursunda iştirak etmək hüququ qazanaraq təlim kursunu başa vurmuş vətəndaşlardan 56 nəfəri biznes planlarını müsbət müdafiə edərək 49 nəfəri aktivlərlə təmin edilmiş və 7 nəfər isə yaxın günlərdə aktivlərlə təmin

ATƏT nümayəndələri ilə görüş

Xocavənd rayon hərbi komissarlığın inzibati binası

"2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr" barədə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Hesabatı

olunacaqdır.

Rayon Məşğulluq Mərkəzinə il ərzində 235 nəfər (97 nəfəri qadın) işaxtaran vətəndaş müraciət etmişdir ki, həmin vətəndaşlardan 142 nəfəri işlə təmin olunmuşdur. 01.01.2020-ci il tarixə idarə, müəssisə və təşkilatlar tərəfindən boş iş yerləri haqqında verilən hesabat formasına əsasən rayon üzrə 120 vakant boş iş yerləri mövcuddur. Mövcud olan boş iş yerləri RMX-28, Təhsil Şöbəsi-68, digər boş iş yerləri (vakant) isə dövlət qulluğu ilə bağlıdır.

01 yanvar 2020-ci il tarixə 30 nəfər işçi qüvvəsi "DOST İŞ MƏRKƏZİ " MMC tərəfindən ictimai işlərə cəlb edlmişdir.

Cari ilin 01 yanvar vəziyyətinə rayonda 71 yeni iş yeri açılmışdır. Onlardan yeni yaradılmış müəssisə və təşkilatlarda 9 nəfər, mövcud müəssisə və təşkilatlarda 13 nəfər 49 nəfər isə isə fiziki şəxslərdə olmuşdur.

Keçən il ərzində Vergi Xidməti tərəfindən qeydiyyatdan keçmiş və fəaliyyət göstərən hüquqi və fiziki şəxslər tərəfindən ayrı-ayrı tədiyyə növləri üzrə 557,00 min manat proqnoza qarşı 699,3 min manat dövlət büdcəsinə vəsaitin köçürülməsi təmin edilərək proqnoza 125,6 faiz əməl olunmuşdur. Hal-hazırda Vergi Xidməti sahibkarlıq fəaliyyəti ilə məşğul olan 1162 vergi ödəyicisi qeydiyyatdadır ki, onlardan da 159 hüquqi, 1003-ü isə fiziki şəxs kimi qeydiyyata durmuşdur.

"Azərpoçt" MMC-nin Xocavənd Rabitə Qovşağının əsas fəaliyyət növü poçt rabitəsi olmaqla əhaliyə poçt, bank və maliyyə xidmətləri göstərir. 2019-cu il ərzində poçt filialı üzrə ayrı-ayrı xidmət sahələrinin inkşafında və müasir informasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən işlər görülməsinin nəticəsi olaraq filial üzrə rüblük tarif gəliri tapşırığı 102 faiz yerinə yetirilmişdir.

2019-su ilin yanvar-dekabr aylarında rayon iqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 22483,5min manat təşkil etmişdir. Məhsul xidmətlərinin 13145,1 min manat (58,5%) istehsal sahələrinin, 9338,4 min manat (41,5%) isə xidmət sahələrinin payına düşmüşdür. 2020-ci ilin 01 yanvar vəziyyətinə kənd təsərrüfatı sahəsində 12460,3 min manatlıq, sənayedə 675,8 min manatlıq, nəqliyyat və anbar təsərrüfatında göstərilmiş xidmətlər üzrə 794,5 min manatlıq, tikintidə 9,0 min manatlıq, ticarət müəssisələrində əmtəə və xidmətlərin satışı üzrə 8543,9 min manatlıq məhsul istehsal olunmuşdur. İqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmində keçən ilin müvafiq dövrünə nisbətən 90,3% artım müşahidə olunmuşdur. Artımın əsas səbəbi fəaliyyətdə olan müəssisələrin hesabata cəlb edilməsi olmuşdur.

Keçən il ərzində rayonun təsərrüfatlarında saxlanılan bütün təsərrüfat kateqoriyaları üzrə iribuynuzlu mal-qaranın sayı 2298 (2018-ci ildə 2126) baş, o cümlədən inək və camışlar 1014 (2018-ci ildə 1022) baş, qoyun və keçilər 18250 (2018-ci ildə 20228) baş olmuşdur. Bu dövr ərzində əsas heyvandarlıq məhsullarının istehsalı, o cümlədən ət istehsalı (diri çəkidə) 7966 (2018-ci ildə 7783,0) sentner, süd istehsalı (fiziki çəkidə) 25413 (2018-ci ildə 25102) sentner, yumurta istehsalı (min ədədlə) 447 (2018-ci ildə 438) ədəd, yun istehsalı (fiziki çəkidə) 158 (2018-ci ildə 151) sentner olmuşdur.

2019-cu ilin məhsulu üçün əkilmiş 8150,0 hektar buğda sahəsinin hər hektarından 21,5 sentner olmaqla 17522,5 ton buğda məhsulu, 250 hektar arpa sahəsinin hər hektarından 23,3 sentner olmaqla 582,5 ton arpa məhsulu, 83,3 hektar sahədə soğan sahəsinin hər hektarından 98 sentner olmaqla 816,3 ton soğan məhsuliu, 28,1 hektar kartof sahəsinin hər hektarından 87 sentner olmaqla 244,5 ton kartof məhsulu, 3,0 hektar əkilmiş digər tərəvəz məhsullarnın hər hektarından 101 sentner olmaqla 30,3 ton digər tərəvəz məhsulları əldə olunmuşdur.

2020-ci ilin məhsulu üçün 8970 hektar sahədə şum aparılmış, ondan 8623 hektar sahədə payızlıq taxıl, o cümlədən 7974 hektar sahədə buğda, 649 hektar sahədə isə arpa səpini aparılmışdır.

Baramaçılığın inkişafı ilə əlaqədar olaraq rayonumuzda 38000 ədəd, cari ilədə isə 4000 ədəd olmaqla cəmi 42000 ədəd tut tingi əkilmişdir. Bu il 7 Kənd İnzibati Ərazi Nümayəndəliyi üzrə 12 nəfər kümçüyə verilən 50 qutu ipək qurdundan 2001,0 kq yaş barama istehsal olunmuşdur.

Bundan başqa süni mayalama yolu ilə alınmış 42 baş buzova görə dövlət tərəfindən hər buzova 100 manat hesabı ilə verilən subsidya heyvan sahiblərinə çatdırılması təmin olunmuşdur.

Arıçılığın inkişafı ilə əlaqədar dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə (pətəyə) görə 10 manat hesabı ilə yardım verilməsi rayon üzrə 30 aprel 2019-cu Il tarixə müraciət etmiş 40 nəfər istehsalçının 490 arı ailəsi qeydiyyata ailınıb. lövhəcik ilə təmin olunmuş,istehsalçılara çatacaq 4900,0 manat məbləğində vəsait istehsalçıların bank hesablarına köçürülmüşdür.

Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Rayon Şöbəsi il ərzində müəssisələrdən, təşkilatlardan, idarələrdən, kooperativlərdən, vətəndaşlardan və fərdi əməklə məşğul olan şəxslərdən sosial sığorta ayırmalarının yığılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Belə ki, 2019-cu il ərzində məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlər büdcə üzrə 538.4 min və qeyri-büdcə üzrə 51.6 min manat olmuşdur. 01 yanvar 2020-ci il tarixə ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun Xocavənd Rayon Şöbəsində 1078 nəfər təqaüdçü qeydə alınmışdır ki, bunlardan 917 nəfəri işləməyən, 161 nəfəri isə işləyən təqaüdçülərdir. İşləyən və işləməyən əhaliyə müavinətlərin ödənilməsi üçün 2777.7 min manat vəsait xərclənmişdir ki, aylıq pensiyaların orta məbləği 230.8 manat təşkil etmişdir

Hesabat dövrü ərzində məcburi köçkün əhalinin davamlı və keyfiyyətli elektrik enerjisi ilə təminatı məqsədi ilə "Xocavənd","Yeni Xocavənd", "Yeni Qaradağlı", "Yeni Tuğ" və 320 ailəlik qəsəbələrdə elektrik enerjisi, qaz və su təminatı yaxşılaşdırılmış, sayğaclar quraşdırılmışdır. Verilən elektrik enerjisi, qaz və su haqlarının ödənilməsi vətəndaşlar tərəfindən həyata keçirilir və bu prosesə rayonda yaradılmış qərargah üzvləri tərəfindən müntəzəm nəzarət olunur. Hal-hazırda Xocavənd, Yeni Xocavənd və 320 ailəlik qəsəbələr smart-kart tipli sayğaclarda istifadə edirlər.

Hesabat ili ərzində milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanması, inkişaf və təbliğ etdirilməsi, tarixi hadisələrin, əlamətdar günlərin qeyd edilməsi, rayonda fəaliyyət göstərən ictimai təşkilatlar, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, siyasi partiyalar və dini qurumlarla qarşılıqlı münasibətlərin qurulması, onların fəaliyyətinin koordinasiyası prioritet istiqamətlərdən olmuşdur.

Respublikanın hər bir vətəndaşının keyfiyyətli və fasiləsiz təhsil alması imkanının təmin edilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün şəraitin yaradılması dövlətin təhsil siyasətinin prioritet sahələrindəndir. Xocavənd rayonunun ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri tərəfindən də təhsilin məzmununun yeniləşdirilməsi, keyfiyyətcə yaxşılaşdırılması, gənc nəslin bir şəxsiyyət kimi formalaşdırılması, vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi istiqamətində mütəmadi olaraq işlər görülmüşdür.

2019-cu il ərzində Xocavənd rayonunda 11 tam orta, 2 orta, 3 ibtidai məktəb olmaqla ümumilikdə 16 ümumtəhsil məktəbi, həmçinin 4 uşaq bağçası və 1 mək-

N saylı hərbi hissənin yubiley tədbiri

"2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr" barədə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Hesabatı

təbdənkənar müəssisə vardır. 2019-2020-ci tədris ilində bütün ümumtəhsil məktəbləri üzrə təhsilə cəlb edilmiş 2072 nəfər (2018-2019-cu tədris ilində 2024 nəfər) şagirdin təlim-tərbiyəsi ilə 344 müəllim, Xocavənd Rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbində 387 şagirdlə 22 müəllim məşğul olur.

Gənc könüllülərə sertifikatlar təqdim olunması

Rayon ümümtəhsil məktəblərinin şagirdləri ötən il ərzində müxtəlif müsabiqə və olimpiadalarda iştirak etmiş, fənn olimpiadasının ikinci rayon turunda 14 nəfər şagird yüksək göstərici ilə yarımfinala, 2 saylı tam orta məktəbin şagirdi Cavadlı Cahan isə Respublikas turuna vəsiqə qazanmışdır.

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-ci ildönümü ilə əlaqədar Təhsil Nazirliyi tərəfindən keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsində Salakətin kənd tam orta məktəbinin şagirdi Quliyeva Günel Barat qızı II yerin qalibi olmuşdur.

"Təhsil" Respublika İdman Mərkəzinin sərbəst güləş üzrə Respublika birinciliyində Xocavənd Rayon Uşaq-Gənclər İdman məktəbinin güləşçiləri S.Qurbanov (59 kq) I yer, R.İsmayılzadə (45 kq) I yer, A.Qasımov (41 kq) II yer tutmuşdurlar. Həmçininin, 26 fevral-03 mart 2019-cu il tarixlərində Təhsil Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Xocalı Soyqırımı qurbanlarının xatirəsinə" həsr olunmuş ənənəvi Respublika şahmat turnirində Xocavənd Rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin şahmatçısı F.Tahirova 14 yaşadək qızlar arasında II yeri tutmuşdur.

Möhtərəm cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan və hər kəs tərəfindən bəyənilən "Ölkəmizi tanıyaq" layihəsində xocavəndli məktəblilər də iştirak etmiş, 23-26 mart və 13-16 noyabr 2019-cu il tarixlərində Quba-Qusar-Xaçmaz marşrutu üzrə 40 şagird 4 nümayəndənin iştirakı təmin edilmişdir.

Ümumtəhsil müəssisələrinin IX sinif şagirdləri üçün keçirilmiş buraxılış imtahanlarında 177 şagirddən 5 nəfər imtahanda iştirak etməmiş, 172 şagirddən 94 nəfəri, yəni 54.6% (2017-2018-ci tədris ilində 57,7%) müsbət qiymət almışdır. Azərbaycan dili üzrə 145 nəfər (84.3%), riyaziyyat üzrə 120 nəfər (69.7%), ingilis dili üzrə 105 nəfər (61%) müsbət qiymət almışdır.

Tam orta təhsil səviyyəsi üzrə 115 şagirddən 52 nəfəri, yəni 45.2% (2017-2018-ci tədris ilində 67,7%) müvəffəq qiymət almışdır. Azərbaycan dili üzrə 88 nəfər (76,5%), riyaziyyat üzrə 62 nəfəri (53,9%), xarici dil üzrə isə 66 nəfər (57,3%) müsbət qiymət almışdır. İki fəndən 24 nəfər (20,8%), üç fəndən 22 nəfər (19,1%) qeyri-kafi qiymət almış, buraxılış imtahanlarının nəticələri Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın iclasında müzakirə olunmuşdur.

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini bitirən 115 məzundan 48 nəfəri (41%) ali məktəblərə qəbul olmuşdur. Məzunlardan 8 nəfəri 400-dən, 7 nəfəri 500-dən, 3 nəfəri isə 600-dən yuxarı bal toplamış, Rayon İcra Hakimiyyətində ali məktəblərə qəbul olunmuş tələbələrlə görüş keçirilmiş, yüksək bal toplayanlara qiymətli hədiyyələr verilmişdir.

Əsas prioritet istiqamətlərdən olan məktəbəqədər təhsil müəssisələrinin yaradılması, erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəsinin 90 faiz səviyyəsinə çatdırılması, nümunəvi kurikulumların tətbiqi qarşıda duran əsas vəzifələrdir. 2019-2020-cu tədris ilində də məktəbəhazırlıq təhsili təşkil edilərək fəaliyyətə başlamış və 8 məktəb üzrə 140 nəfər 5 yaşlı uşaq həmin qruplara cəlb edilmişdir.

Hesabat dövrü ərzində vətəndaşların sağlamlığının qorunması sahəsində Rayon Mərkəzi Xəstəxanasının tibb işçiləri tərəfindən əhali arasında, məktəblərdə və uşaq bağçalarında reyd keçirilmiş, tibb işçilərindən ibarət yaradılmış briqada mütəmadi olaraq əhali ilə profilaktiki söhbətlər apararaq məktəblərdə olmuş və maarifləndirmə işləri aparmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əhalinin tibbi müayinədən keçirilməsi ilə bağlı verdiyi tapşırığa əsasən Rayon İcra Hakimiyyəti başçısının Sərəncamı ilə işçi qrupu və 12 nəfərdən ibarət müxtəlif ixtisaslı həkimlər olmaqla 2 briqada yaradılmış, rayonda müayinənin mütəşəkkil qaydada təşkili üçün bütün lazımi tədbirlərin həyata keçirilməsi üçün aidiyyati şəxslərə müvafiq tapşırıqlar verilmiş və əhalinin məskunlaşdığı ərazilər və kollektivlər nəzərə alınmaqla xüsusi qrafik tərtib olunmuşdur. 18 yaşdan yuxarı olan 8121 nəfər rayon sakinindən 6923 nəfəri pulsuz tibbi müayinədən yararlanmışdır ki, onlardan 6493 nəfəri sağlam hesab edilmiş 362 nəfəri ambulator müalicəyə, 66 nəfəri isə stasionar müalicəyə cəlb olunmuş, 2 nəfər müayinə və müalicə üçün Bakı şəhərinə göndərilmişdir. Hesabat ilində ana və bir yaşadək uşaq ölümləri qeydə alınmamışdır.

Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı və Xocavənd Rayon İcra Hakimiyyətinin dəstəyi ilə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən xəstə uşaqlar üçün qanvermə aksiyası keçirilmişdir.

Ötən il 1 rayon, 6 kənd mədəniyyət evi, 8 kənd klubu, 1 Rayon Mərkəzi Kitabxana Sistemi, 4 kitabxana filialı və 2 uşaq musiqi məktəbi tərəfindən müxtəlif mövzularda tədbirlər keçirilmiş, bu tədbirlərin əksəriyyəti milli adət-ənənələrimizin qorunub saxlanması, mədəni irsimizin təbliğ olunması, hərbi vətənpərvərlik işinin gücləndirilməsi, tarixi günlərin və əlamətdar hadisələrin qeyd edilməsi mövzusunda olmuşdur. "Dövlət Proqramı"na uyğun uyğun olaraq www.khojavend.cls.az <http://www.khojavend.cls.az/> internet saytı yaradılmış və həmin saytın elektron kitabxana bölməsində 176 ədəd müxtəlif elektron ədəbiyyat yerləşdirilmişdir.

2019-cu ilin müvafiq dövrü ərzində gənclərlə iş, bədən tərbiyəsi və idman sahələrində dövlət siyasətinin əsas istiqamətlərinə uyğun olaraq tədbirlərin həyata keçirilməsi təmin edilmiş, idman və bədən tərbiyəsinə daha geniş kütlələrin cəlb edilməsi, gənclərin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsi, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, fiziki tərbiyəsi üçün müvafiq imkanlar yaradılması, onlarda vətənpərvərlik və Azərbaycan dövlətçiliyinə sədaqət hisslərinin yüksəldilməsi diqqət mərkəzində olmuşdur.

Keçən il ərzində rayon idmançılarının, yeniyetmə və gənclərin bir sıra respublika və zona səviyyəli tədbirlərdə iştirakı təmin edilmişdir. Belə ki, İsmayıllıda VKC idman növü üzrə Azərbaycan birinciliyində 1 idmançı I yerə, 1 idmançı isə yeri III yerə layiq görülmüş, Astara şəhərində şahmat üzrə 16 yaşadək oğlan və qızlar arasında Azərbaycan birinciliyinin seçmə yarışlarında Tahirova Fidan David qızı 14 yaşlı qızlar

"Həmrəy olaq" devizli konsert proqramı keçirilmişdir

"2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr" barədə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Hesabatı

arasında 3-cü yeri tutmuş,Saatlı rayonunda voleybol üzrə zona birinciliyində Xocavənd rayon komandası 2-ci yeri əldə etmiş, Cəlilabad rayonunda zona yarışında 2 nəfər idmançı 1-ci yeri, 1 nəfər idmançı isə 3-cü yeri tutaraq finala vəsiqə qazanmışdır. Həmçinin Cəlilabad rayonunda keçirilən "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə zona yarışında Xocavənd rayon komandası 3-cü yeri, Horadiz şəhərində "Şahin" hərbi-idman oyununun zona birinciliyidə Xocavənd rayon komandası 2-ci yeri tutaraq finala vəsiqə qazanmışdır.

Hesabat dövründə ictimai qurumlarla əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, əhalinin siyasi maariflənməsi, cəmiyyətdə gedən ictimai-siyasi proseslərin əsas meyillərinin və inkişaf perspektivlərinin təhlili davam etdirilmiş, ölkə həyatında baş verən siyasi hadisələr, möhtərəm Prezident cənab İlham Əliyevin xarici və daxili siyasətinin əhali arasında təbliği aparılan ideoloji işin tərkib hissəsi kimi daim diqqət mərkəzində saxlanılmışdır. Bakı, Ağcabədi və Beyləqan rayonları üzrə yaradılmış təbliğat qrupları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məruzə və nitqlərinin öyrənilməsi və təbliği istiqamətində həftə görüşləri təşkil etmiş, qabaqcıl və nüfuzlu ziyalılar əhalinin müxtəlif zümrələrinin iştirak etdiyi toplantılarda məruzələrlə çıxış etmişlər.

Xocavənd Rayon İcra Hakimiyyəti Başçısı Aparatının rəsmi internet saytı (www.xocavend-ih.gov.az), facebook (<https://www.facebook.com/Xocavend1991/>), tvitter, İnstaqram profilləri və youtube kanalı vasitəsilə rayonda görülmüş işlər və həyata keçirilən tədbirlər barədə müntəzəm olaraq ictimaiyyətə geniş məlumatların operativ şəkildə çatdırılması təmin edilmişdir. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasət, regionlarda sosial-iqtisadi inkişafın konkret nəticələri və milli-mənəvi dəyərlərimizin təbliğ olunması istiqamətində həyata keçirilən tədbirlər Rayon İcra Hakimiyyəti Başçısı Aparatının orqanı olan "Xocavənd" ictimai-siyasi qəzetində mütəmadi olaraq işıqlandırılır və bu məsələ ümdə vəzifə kimi qəbul olunur.

Hesabat dövründə rayon ictimaiyyətinin iştirakı ilə milli adət-ənənələrimizin qorunub saxlanması, hərbi vətənpərvərlik işinin gücləndirilməsi məqsədi ilə Azərbaycanın tarixində mühüm əhəmiyyət kəsb edən əlamətdar günlər, bayramlar təntənəli şəkildə qeyd olunmuş, xalqımızın yaddaşında dərin izlər buraxmış 20 Yanvar, 31 Mart, Qaradağlı və



"Ölkəmizi tanıyaq" tur-aksiyanın iştirakçıları RİH-də qəbulda

Xocalı soyqırımlarına həsr olunmuş geniş toplantılar, rayon məktəbliləri arasında inşa yazı, bədii qiraət üzrə müsabiqələr və Qarabağın tarixinə həsr olunmuş bilik yarışları keçirilmiş, xalqımızın qan yaddaşına əbədi həkk olunmuş bu tarixlərin mahiyyəti bir daha dəyərləndirilmiş, Ermənistanın işğalçılıq siyasətini geniş şəkildə əks etdirən tarixi və sənədli materiallar sosial şəbəkələrdə yerləşdirilmişdir.

O cümlədən, "Askanews" xəbər agentliyinin, "İl Massaggero" qəzetinin, "Radio Radicale" radiosunun, "Agenza Nova" informasiya agentliyinin nümayəndələri Xocavənd rayonuna səfər çərçivəsində məcburi köçkünlər və şəhid ailələri ilə görüşmüşlər.

2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə bağlıcənab Prezident İlham Əliyevin Sərəncamının icrasını təmin etmək məqsədilə il ərzində silsilə tədbirlər keçirilmişdir. Tədbirlərin yekunu olaraq 06 dekabr 2019-cu il tarixində Xocavənd rayonunda "Azərbaycanımızı yaşıllaşdıraq" devizli ağacəkmə aksiyası keçirilmişdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bir gün ərzində 650 min ağacın əkilməsi ilə bağlı təşəbbüsünə qoşulan xocavəndlilər 1400 ağac, eyni zamanda Rayon Polis Şöbəsinin əməkdaşları 100 ağac əkmişdirlər.

2019-cu ilin mart ayından etibarən Xocavənd Rayon İcra Hakimiyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirməklə gənclər arasında könüllülük fəaliyyətinin təşviq edilməsinə başlamışdır. Könüllü fəaliyyətin rəsmiləşdirilməsi üçün Rayon İcra Hakimiyyəti başçısının Sərəncamı ilə könüllülərlə iş üzrə koordinator və könüllülərlə müqavilə bağlamaq səlahiyyəti olan şəxs müəyyən edilmişdir. Rayon İcra Hakimiyyətinin veb-səhifəsində "Könüllü fəaliyyət" əsas bölmə olmaqla, müvafiq altbölmələr ("Necə müraciət etməli", "Tədbirlər, layihələr və təlimlər" "Fəal könüllülərimiz", "Islə təmin olunmus könüllülərimiz") yaradılmış, könüllü fəaliyyətinə başlanılması barədə İcra Hakimiyyətinin sosial şəbəkələrdəki rəsmi səhifələrində elanlar yerləşdirilmişdir. 2019-cu il ərzində 11 nəfər gənc Rayon İcra Hakimiyyəti Başçısı Aparatında iki aylıq iş təcrübəsindən keçmiş və hər birinə sertifikat təqdim edilmişdir. Həmin könüllü gənclərdən 7 nəfəri rayonun müxtəlif idarə və müəssisələrində işlə təmin olunmuşdur.

09 dekabr 2019-cu il tarixində Tuğ kənd uşaq musiqi məktəbi və Xocavənd Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Milli İncəsənət Muzeyində "Həmrəy olaq" devizli konsert proqramı keçirilib. Konsertdə Milli Məclisin deputatları E.Məmmədov, F.Qasımova, Rayon İcra Hakimiyyətinin başçısı E.Hüseynov, Milli İncəsənət Muzeyinin direktoru Ç.Fərzəliyev, Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi E. Məmmədov, ziyalılar, valideynlər və məktəbin kollektivi iştirak etmişdir. Tədbirdə şagird və müəllimlərin ifasında Azərbaycan və Qərb bəstəkarlarından ifalar səsləndirildi.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə yaradılmış "Dini İşlər üzrə Komissiya" rayonda dini proseslərə nəzarətin gücləndirilməsi, radikal dini qrupların zərərsizləşdiriləsi, qeyri-ənənəvi təriqətlərin zərərli təbliğatının qarşısının alınması, milli-mənəvi dəyərlərin, tarixi-dini abidələrin və tolerantlıq mühitinin qorunub saxlanması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Görülmüş məqsədyönlü işlərin nəticəsidir ki, rayon ərazisində radikal dini cərəyan, vəhhabi təriqəti və xaricdən istiqamətləndirilən missionerlərin fəaliyyəti qeydə alınmamışdır.

Hesabat dövründə rayonda yalnız bir siyasi partiya, Yeni Azərbaycan Partiyasının rayon təşkilatı fəaliyyət göstərmişdir. 1993-cü ildə yaradılan və hal- hazırda öz sıralarında 1154 nəfəri birləşdirən Yeni Azərbaycan Partiyasının Xocavənd Rayon Təşkilatı üzvlərindən 676 nəfərini qadınlar, 530 nəfərini isə gənclər təşkil edir. Hesabat dövrü ərzində 152 nəfər partiya sıralarına qəbul olunub. Rayon təşkilatı yarandığı gündən ölkəmizdə keçirilən siyasi kampaniyalarda Heydər Əliyev ideyalarına, dövlətə və dövlətçiliyə sadiqliyini daim nümayiş etdirmişdir.

2019-cu il ərzində Xocavənd Rayon İcra Hakimiyyəti başçısı tərəfindən 78 (2018-ci ildə 67 nəfər), ayrı-ayrı şöbələr tərəfindən isə 514 (2018-ci ildə 518 nəfər), (Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi-105,

Ağacəkmə aksiyası

"2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr" barədə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Hesabatı

İctimai-siyasi və humanitar məsələlər şöbəsi-127, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi-201, Hüquq şöbəsi-31, Memarlıq və tikinti şöbəsi-50) rayon sakini qəbul edilmiş, onları maraqlandıran və ya narahat edən məsələlər yerindəcə öyrənilmiş və müvafiq köməkliklərin göstərilməsi təmin edilmişdir. Rayon İcra Hakimiyyəti başçısı tərəfindən qəbul edilən vətəndaşlardan 22-si (28,2%) evlə təmin olunma, 20-si (25,6%) işlə təmin olunma, 7-si (8,9%) torpaq məsələləri, 2-si (2,6%)ayrı təsərrüfat olma, 2-si (2,6%) yemək xərcinə bərpa olma, 2-si (2,6%) müharibə veteranı adı verilməsi barədə, 1-i (1,3%) müalicəsinə köməklik olunması, 22-si (28,2%) isə digər məsələlərlə bağlı müraciət etmişdir.

Səyyar qəbulların səmərəli təşkili və daha çox rayon vətəndaşının bu görüşlərdə iştirak etməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, il ərzində səyyar görüşlər həftədə bir dəfə olmaqla təşkil edilmiş, görüşün keçirilmə vaxtı, yeri barədə sakinlər əvvəlcədən məlumatlandırılmış, qəbullar zamanı vətəndaşların səsləndirdiyi hər bir məsələ ilə bağlı tədbirlər görülmüş və vətəndaşlara qanunamüvafiq qaydada cavablar verilmişdir. Hesabat dövrü ərzində məcburi köçkünlərin məskunlaşdığı 3 şəhər, 10 rayon, 5 qəsəbə və kəndlərdə 46 səyyar qəbul keçirilmişdir. Keçirilmiş görüşlərdə ümumilikdə 2653nəfər rayon sakini iştirak etmiş və bu görüşlərdə müxtəlif problemlərlə bağlı 85 məsələ barədə müraciətlər olunmuşdur. Qaldırılmış problemlərdən 19-u mənzil məsələləri, 8-i işlə təmin olunma, 7-si yemək xərci müavinəti, 5-i gənc ailələrin ailə təsərrüfatından ayrılması, 4-ü elektrik enerjisi təchizatı, 4-ü suvarma suyu təchizatı, 4-ü torpaq, 3-ü səhiyyə, 3-ü müharibə veteranı adı verilməsi, 3-ü maddi yardım, 2-si içməli su təchizatı, 2-si qaz və istilik təchizatı,1-i əmək haqqı, 1-i sahibkarlıq və kredit, 1-i rabitə və internet xidməti,1-i hərbi qeydiyyat, 1-i sosial obyektlərin təmiri, 1-i pensiya, 15-i isə digər məsələlərlə bağlı olmuşdur.

Səyyar qəbullar zamanı səsləndirilmiş 57 müraciətlə bağlı Yerli icra hakimiyyəti orqanları qarşısında məsələ qaldırılmış, 28 müraciətin icrası ilə bağlı isə rayon təşkilatlarına tapşırıqlar verilmişdir. Müxtəlif məsələlərlə bağlı səsləndirilmiş məsələlərdən 31-i(36,5 %) müsbət həll edilmiş, 54-ü(63,5 %) barədə müvafiq izahat işləri aparılmışdır.

2019-cu il ərzində vətəndaşlar tərəfindən Rayon İcra Hakimiyyəti başçısı aparatına 281 müraciət daxil olmuşdur. 2017-ci ildə daxil olmuş müraciətlər 350, 2018-ci ildə isə 289 olmuşdur. Rəqəmlərdən göründüyü kimi 2017-ci illə müqayisədə 19,7 faiz (69 müraciət), 2018-ci illə müqayisədə isə müraciətlərin sayı 2,8 faiz (8 müraciət) azalmışdır.

İcra Hakimiyyəti başçısı aparatına daxil olan müraciətlərin 266-sı məktub, 11-i teleqram formasında, 4-ü isə İcra Hakimiyyəti Aparatının rəsmi saytına (www.xocavend-ih.gov.az) daxil olmuşdur. Ümumi müraciətlərdən 154-ü rabitə şöbəsindən, 12-si şəxsən, 4-ü isə elektron poçtla təqdim olmuşdur. Ümumi müraciət edənlərin 262-si məcburi köçkün (89-u qadın), 11-i Şəhid ailəsinin üzvləri (8-i qadın), 4-ü qaçqın, 3-ü Qarabağ müharibəsi iştirakçısı, 1-i isə Qarabağ müharibəsi əlilidir. Yazılmış müraciətlərin 280-ı fərdi (99-u qadın), 1-si isə kollektiv formada yazılmış müraciətlərdir.

2019-cu il ərzində Rayon İcra Hakimiyyəti başçısı aparatına daxil olan müraciətlərin hamısını (281) ərizələr təşkil etmiş, şikayət xarakterli müraciət daxil olmamışdır. 2018-ci il ərzində 289-u müraciətin 94,5 faizini (273-ü) ərizələr, 5,5 faizini isə (16-sı) şikayətlər təşkil etmişdir.

Ümumi müraciətlərin 37,7 faizi (106 müraciət) müsbət həll edilmiş, 62,3 faizi (175 müraciət) ilə bağlı müvafiq izahat işləri aparılmışdır. (2018-ci ilin müvafiq dövrü ərzində daxil olan müraciətlərin34,6 faizi (100 müraciət) müsbət həll edilmiş, 65,4 faizi (189 müraciət) ilə bağlı müvafiq izahat işləri aparılmışdır).

Şikayət ərizələri 2018-ci ildə 16 olmuşdursa, 2019-cu ildə olmamışdır.

2019-cu il ərzində Rayon İcra Hakimiyyəti Aparatında və eləcə də tabeli qurumlarda vətəndaşlarla əlaqələrin düzgün təşkilinin nəticəsi olaraq 2017-ci ildə Azərbaycan Respublikası Prezident Administrasiyasına ünvanlanan müraciətlər ümumi müraciətlərin 25,7 faizini (90 müraciət) təşkil etdiyi halda, 2018-ci ildə bu rəqəm 19,4 faizə (56 müraciət), 2019-cu ildə isə 16,7 faizə (47 müraciət) enmişdir.

Vətəndaşlar tərəfindən bilavasitə RayonİcraHakimiyyətinə ünvanlanan182 müraciətdən (2018-ci ildə 174 müraciət) 100-ü (54,9%-i) müsbət həll edilmiş, 82-i (45,1%-i) barədə müvafiq izahat işləri aparılmışdır.

İl ərzində vətəndaşlar tərəfindən tabeli qurumlara 284 (2018-ci ildə 340) daxil olmuşdur. Bu müraciətlərdən 175-i (61,6 %) müalicə və dərmanlarla təminat, 36-sı (12,7 %) arxiv sənədlərindən istifadə, 34-ü (12,0 %) orta təhsil məsələləri, 14-ü(4,9 %) işlə təmin olunma, 13-ü (4,6 %) vəzifəli şəxslərin fəaliyyəti, 4-ü (1,4 %) qaçqınlarla və məcburi köçkünlərlə bağlı məsələlər, 3-ü (1,0 %) pasport qeydiyyatına alınma, 2-si (0,7 %) əmək mübahisələri, 2-si (0,7 %) mənzillə təmin olunma, 1-i isə (0,4 %) su təchizatı məsələləri ilə bağlı məsələlər olmuşdur. Bu müraciətlərin 274-ü (96,5 faizi) ərizə, 10-u (3,5 faizin) şikayətlər təşkil etmişdir. Müraciətlərin 252-si (88,7 faizi) müsbət həll edilmiş, 13-ü (4,6 faizi) qismən təmin olunmuş, 17-si (6,0 faizinə) barədə müvafiq izahatlar verilmiş, 2-si (0,7 faizi) isə əsassız sayılmışdır.

Tabe qurumlarda il ərzində 1225 (2018-ci ildə 975) vətəndaş qəbul edilmişdir.

2019-cu il ərzində səyyar görüşlər zamanı qaldırılmış problemlərin icrası, həmçinin vətəndaşların qəbulu, onların müraciətlərinə baxılması işinin vəziyyəti araşdırılmış, təhlillər aparılmış və görülmüş işlərlə bağlı geniş arayış təşkil olunaraq Xocavənd Rayon İcra Hakimiyyəti başçısı yanında Şura yığıncağında müzakirəyə çıxarılmışdır. Belə ki, 16.01. 2019-cu il tarixli 01saylı Şura yığıncağında "2018-ci il ərzində Rayon İcra Hakimiyyəti başçısının Respublikanın müxtəlif rayonlarında keçirdiyi səyyar görüşlərin təşkili və bu qəbullar zamanı qaldırılmış məsələlərin icra vəziyyəti", 29.03.2019-cu il tarixli 06 saylı Şura yığıncağında (Səyyar formada) isə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və və-

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin Azərbaycan Nümayəndəliyinin direktoru xanım Park Kumok Rayon İcra Hakimiyyətində olmuşdur

"2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2020-ci ildə qarşıda duran vəzifələr" barədə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Hesabatı

təndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun "Azərbaycan" qəzetinin 07-08 fevral 2019-cu il tarixli nömrəsində " Prezident İLHAM ƏLİYEVİN vətəndaş müraciətlərinə münasibəti bütün məmurlara örnəkdir " analitik informasiya xarakterli təhlildən irəli gələn vəzifələr və 2018-ci il ərzində Xocavənd RİHB Aparatına və onun tabe qurumlarına daxil olmuş vətəndaş müraciətlərinə baxılma vəziyyəti barədəməsələlər müzakirəyə çıxarılaraq mövcud çatışmazlıqlar geniş formada müzakirə edilmiş və bu istiqamətdə görüləcək işlərlə bağlı şöbə və sektor müdirlərinə, inzibati ərazi dairələri üzrə nümayəndəliklərə, idarə, müəssisə və təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verilmişdir.

Keçirilmiş Şura iclaslarında 31 məsələnin müzakirə edilməsi nəzərdə tutulduğu halda 39 məsələ müzakirəyə çıxarılmışdır. Şura yığıncağının gündəliyinə çıxarılan məsələlər geniş şəkildə müzakirə edilərək müvafiq qərarlar qəbul olunmuş, qəbul olunmuş qərarlar aidiyyəti üzrə ünvanlara çatdırılmış və icrasına nəzarət olunmuşdur. Həmçinin idarə və təşkilatlarda keçirilən toplantılarda, eləcə də kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin əhali ilə keçirdikləri tədbirlərdə bu barədə geniş məlumatlar verilmişdir. Hesabat dövrü ərzində Şuranın 1 səyyar iclası keçirilmişdir.

Keçən il ərzində rayonun idarə, müəssisə və təşkilatlarının zəruri statistik məlumatları toplanaraq müqayisəli təhlil aparılmış və Prezident Administrasiyasının Analitik Şöbəsinə göndərilməsi təmin edilmişdir. Qazanılmış müsbət tendensiya 2020-ci ildə də davam etdiriləcək, əldə olunmuş statistik rəqəmlərin vaxtlı-vaxtında təhlil olunması və bu təhlillərin nəticələrinə əsaslanaraq gələcək fəaliyyətimizin daha da səmərəli qurulması üçün mütəmadi qaydada tədbirlərin həyata keçirilməsi təmin olunacaqdır.

2019-cu il ərzində Xocavənd rayonunun azərbaycanlı əhalisi 01.01.2020 -cı il tarixə 3180 ailə olmaqla 12715 nəfər olmuşdur. Rayonun ərazisi işğal altında olduğu üçün soydaşlarımız Respublikanın 39 şəhər və rayonunda , əsasən Beyləqan rayonu ərazisində yerləşən "Yeni Xocavənd ", Qaradağlı , "Yeni Tuğ", "Xocavənd", 320 ailəlik qəsəbədə və Ağcabədi rayonu ərazisində "Hündürmərtəbəli yaşayış massivi"ndə kompakt şəkildə məskunlaşmışlar. Rayonun azərbaycanlı əhalisi Beyləqan rayonu ərazisində 1219 ailə olmaqla 4887 nəfər, Ağcabədi rayonu ərazisində 517 ailə 2082 nəfər, Sumqayıt şəhəri üzrə 143 ailə 541 nəfər, Bakı şəhərinin on bir rayonu üzrə 941 ailə 3820 nəfər və Respublikanın digər şəhər və rayonlarında 360 ailə 1385 nəfərdir. Rayon əhalisinin 262 nəfəri isə müvəqqəti olaraq xarici ölkədə yaşayırlar.

"Bayrağımız qürur mənbəyimizdir" devizi altında keçirilmiş tədbir

Ötən il rayon üzrə doğulan uşaqların sayı 184 (2018-cı il ərzində 156), vəfat edən vətəndaşların sayı isə 82 (2018-cı il ərzində 67) nəfər olmuş, əhalinin təbii artımı 102 nəfər təşkil etmişdir. Qeydiyyata düşən vətəndaşların sayı 166 (2018-cı il ərzində 185) nəfər, ailə vəziyyətləri ilə bağlı qeydiyyatdan çıxan vətəndaşların sayı isə 90 (2018-cı il ərzində 90) nəfər təşkil etmişdir. Əhalinin miqrasiya artımı 76 nəfər olmuşdur. 2019-cu il ərzində rayon üzrə 17 (2018-cı il ərzində 15) nəfər arasında rəsmi nigah bağlanmış və 5 (2018-cı il ərzində 4) nigahın pozulması qeydə alınmışdır.

Hesabat dövrü ərzində həqiqi hərbi xidmətə çağırışın mütəşəkkil keçirilməsi təmin edilmiş, ümumilikdə 75 nəfər həqiqi-hərbi xidmətə yola salınmışdır (2018-ci il 58 nəfər). Hüquq-mühafizə orqanları ilə sıx, səmərəli və işgüzar əlaqələrin yaranmasının nəticəsində rayonda davamlı olaraq ictimai-siyasi sabitlik qorunub saxlanılmış, cinayətlərin bütün təzahürləri ilə mübarizədə müsbət nəticələr əldə olunmuşdur. Xocavənd Rayon Polis şöbəsinin şəxsi heyəti əvvəlki illərdə olduğu kimi 2019-cu il ərzində də rayon ərazisində ictimai asayişin mühafizəsi, ictimai təhlükəsizliyin təmin olunması və cinayətkarlığa qarşı mübarizə sahəsində zəruri tədbirlər həyata keçirmiş, əməliyyat şəraitinə nəzarət etməklə profilaktiki fəaliyyət funksiyasını yerinə yetirmişdir. 2019-cu il ərzində Xocavənd rayonundan olan məcburi köçkünlərin məskunlaşdıqları inzibati ərazidə qeydə alınmış 6 cinayət hadisəsinin açılması tam təmin edilmişdir. Polis Şöbəsinin Qeydiyyat Şəxsiyyət Vəsiqəsi Qrupu (QŞVQ) tərəfindən vətəndaşlara 1389 ədəd şəxsiyyət vəsiqəsi verilmişdir ki, bunlardan da 69 ədədi köhnə nəsil şəxsiyyət vəsiqəsi, 1320 ədədi isə yeni nəsil şəxsiyyət vəsiqələridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin təhlili onu göstərir ki, Azərbaycan bu il də bütün strateji planlarını yerinə yetirərək sosial-iqtisadi və ictimai-siyasi inkişaf proseslərini davam etdirmək üçün əsaslandırılmış, aydın proqramlara malikdir və qlobal miqyasda özünü göstərən böhranlı vəziyyəti ölkəmizin gələcəyi üçün yeni bir imkana çevirmək əzmindədir. Hesabat dövrü ərzində Xocavənd rayon ictimaiyyəti qarşıya qoyulan vəzifələrin icrası, regionların sosial-iqtisadi inkişafının sürətlənməsi, ordu quruculuğu istiqamətində həyata keçirilən genişmiqyaslı işləri, ictimai-siyasi asayişin qorunub möhkəmləndirilməsi, eləcə də daxili və xarici siyasət sahəsində əldə olunmuş nailiyyətləri ürəkdən bəyənir, müdafiə edir və dəstəkləyirlər. Xocavənd sakinləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin icrasında fəal mövqe, əzmkarlıq və yüksək işgüzarlıq nümayiş etdirərək Vətənimizin daha da çiçəklənməsi və qüdrətlənməsi naminə fəaliyyətlərini davam etdirəcəklər.

Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov

Qanvermə aksiyası

Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti
Baş redaktor: Ruslan Şirinov

Hesab №: AZ73AIIB33080019444000298140
VÖEN: 7900031641
"Kapital Bank" ASC Beyləqan Filialı

Ünvan: Yeni Xocavənd qəsəbəsi,
Tiraj:1000,
Sifariş 765

Mob: (051)720-21-71
www.Xocavend-ih.gov. az
www. Xocavendmks. com
www. Garadaghli. org

Qəzet "Xocavənd" qəzeti redaksiyası MMC-də yığılmış və səhifələnmiş "Son dakika" mətbəəsində çap olunmuşdur.